# AZWOOL facade 130

## FASAD LÖVHƏSİ - XARİCİ MƏKANLAR ÜÇÜN İSTİLİK VƏ SƏS İZOLYASİYASI, DAŞ YUNU




### Məhsul haqqında

AZWOOL facade 130 fasad lövhəsi - bazalt əsaslı daş yunu lövhəsidir, dekorativ suvaqlı və ventilyasiya sistemli fasadlarda istilik və səs izolyasiya təbəqəsi kimi geniş istifadə olunur. Yüksək buxar keçiriciliyi, rütubət davamlığı və yanğına davamlılıq xüsusiyyətləri ilə effektiv və etibarlı həll təqdim edir.



### İstifadə sahələri

Bu məhsuldan:
- dekorativ suvaqlı fasad sistemlərində;
- ventilyasiya olunan fasad sistemlərində;
- ictimai binaların fasadlarında istifadə olunur.

### Üstünlükləri

- Yüksək buxar keçiriciliyinə malikdir;
- Hidrofobik xüsusiyyətə malikdir;
- Tam yanmazdır;
- Effektiv istilik izolyasiyasına malikdir;
- Asan və sürətli montaj edilir.

### İstifadə qaydaları

***Səthin hazırlanması.*** Divarın üzərindəki toz, kir, köhnə boya və ya suvaq qalığı tamamilə təmizlənməlidir. Səth nəmlidirsə, tamamilə qurudulmalı, möhkəm və çatlar aradan qaldırılmış olmalıdır. Səthin şaquli və üfüqi səviyyəsi tərəzi ilə yoxlanmalı, böyük oyuq və çıxıntılar uyğun məhsulla düzləşdirilməlidir. Lövhələrin alt kənarını düzgün yüksəklikdə sabitləmək

üçün “başlanğıc profili” şuruplanaraq tənzimlənməlidir.

***Tətbiqi.*** İstehsalçının tövsiyə etdiyi miqdar nisbətində quru yapışdırıcı suya qarışdırılaraq homogen məhlul əldə edilir. Müvafiq qalınlıqda AZWOOL fasad lövhələri səthə yapışdırıcı ilə “nöqtə-çərçivə” üsulu ilə bərkidilir. Lövhələr kərpic düzümündə düzülməlidir. Xüsusilə küləyə məruz qalacaq hissələrdə, lövhələr dübellərlə əlavə möhkəmləndirilə bilər. Lövhələr arasında yarana biləcək boşluqlar bıçaqla kəsilmiş lövhə parçaları ilə doldurulmalı, boşluqsuz bağlanma təmin edilməlidir. Qapı-pəncərə dəstək profilləri və künc profilləri montaj olunmalı, kəsik kənarları ixtiyari kənar qoruyucularla (PVC künc profili) bitirilməlidir. Bundan sonra ventilyasiya boşluğu və son fasad örtüyü (suvaq, panel, siding və s.) quraşdırılmalıdır.

## Texniki göstəricilər

| | | | | |
|---|---|---|---|---|
| **İstilik keçiricilik, Vt/mK** | <0,036 | | | |
| **10% deformasiyada sıxılmaya qarşı davamlılıq, Kpa** | <10 | | | |
| **Üzvi maddələrin tərkibi, %** | <4,5 | | | |
| **Qısa müddət ərzində (24 saat) suyun hopması kq/$m^2$** | <3 | | | |
| **Uzun müddət ərzində (28 gün) suyun hopması kq/$m^2$** | <3 | | | |
| **Yanğına qarşı dayanıqlılıq** | A1 sinifli | | | |
| **Sıxlıq, kq/$m^3$** | 130 | | | |
| **Uzunluq, mm** | 1200 | 1200 | 1200 | 1200 |
| **Eni, mm** | 600 | 600 | 600 | 600 |
| **Qalınlıq, mm** | 50 | 80 | 100 | 120 |
| **Plitələrin qablaşdırmada miqdarı, əd.** | 6 | 6 | 3 | 4 |
| **Qablaşdırmada miqdarı, $m^2$** | 4,32 | 4,32 | 2,16 | 2,88 |
| **Qablaşdırmada miqdarı, $m^3$** | 0,432 | 0,3456 | 0,432 | 0,3456 |
| **Qablaşdırmaların altlıqda miqdarı, əd.** | 24 | 16 | 16 | 16 |
| **Qablaşdırmaların altlıqda miqdarı, $m^3$** | 0,864 | 0,922 | 1,152 | 1,382 |

## Sərfiyyat

Lövhə ölçüsü: 1200 × 600 mm - bir lövhə 0,72 $m^2$ sahəni örtür.
Sərfiyyat: 1,4 lövhə/$m^2$.

## Saxlama müddəti və qaydası

İstehsal tarixindən etibarən düzgün şəraitdə və qablaşdırmada saxlamaqla 12 ay.